**Ülvi Musayev**
**Həcər Musayeva**

# ƏDƏBİYYAT
# SINAQLAR TOPLUSU

**BAKI – 2026**

**Ümumi (11 illik) tam orta təhsil bazasında yeni təhsil proqramı üzrə ədəbiyyat fənnindən imtahana hazırlaşanlar üçün sınaq nümunələri.**

## MSİ–1

**1. "Basatın Təpəgözü öldürdüyü boy"da hansı hadisə daha əvvəl baş vermişdir?**
A) Dədə Qorqud Basata nəsihət edir.
B) Sarı çoban köç zamanı ət parçası görür.
C) Aruz Təpəgözü evinə gətirir.
D) Düşmən Oğuz elinə basqın edir və Aruzun oğlu köç zamanı yolda itir.
E) Bayandır xan bəylərlə gəzintiyə çıxır.

**2. Nümunələrlə bağlı yanlış fikri müəyyən edin.**
1.
"Gün dəyən əbrüşüm yarpaqlarında
Sanki əllərini isidir payız.
Qızılı yarpaqlar qaralıb bir az,
Elə bil Gədəbəy misidir payız.
Payız üşüyür...".
2.
"Bir sərçə sığınıb quru budağa,
Payızın fikrini çəkir deyəsən.
Sünbülotu yerə dikib başını,
Yaza toxumunu əkir deyəsən.
Payız üşüyür...".
A) Hər iki nümunədə müəyyən bir əlamətin başqa əşyanın üzərinə köçürülməsi bədiilik yaratmışdır.
B) Hər iki nümunədə bədii təyin işlənmişdir.
C) Hər iki nümunədə eyni təsvir vasitəsindən iki dəfə istifadə olunmuşdur.
D) Yalnız birinci nümunədə bənzətmədən istifadə olunmuşdur.
E) Hər iki nümunədə söz sırasının pozulması baş vermişdir.

**3. "Tüstüsüz damlar,**
**Sarı adamlar,**
**Tənbəl adamlar**
**Bu balama qurban" nümunəsi ilə bağlı yanlış fikri müəyyən edin.**
A) Məişət nəğməsidir.
B) Bayatı formasında yazılmışdır.
C) Bəzi nümunələri ikilik və dördlük şəklində olur.
D) Uşaq oyaq olarkən əzizləmək məqsədilə oxunulur.
E) Lirik folklor nümunəsidir.

**4. Aşağıdakı nümunələrdən hansı fikrin daha yığcam və müdrik şəkildə ifadə olunduğu janra aiddir?**
A) Söz dəyirmandakıdır.
B) Mıxı mismara döndərən var.
C) Dava yorğan davasıdır.
D) Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş.
E) Hər şeyin təzəsi, dostun köhnəsi.

**5. Qeyd edilən fikirlər hansı janra aiddir?**
*Uşaqlarda təqlidlə yanaşı, düzüb-qoşmaq, yaratmaq bacarığını da üzə çıxarır. O, sənətin bir neçə sahəsini – musiqini, rəqsi, aktyorluğu özündə birləşdirir.*
A) nağıllar B) əmək nəğmələri C) tamaşalar D) oyunlar E) mahnılar

**6. “Dərzi şagirdi Əhməd” nağılı ilə bağlı uyğunluq hansı bənddə pozulmuşdur?**

| **Səbəb** | **Nəticə** |
|---|---|
| A) Əhməd Firəng padşahının birinci tapşırığının həllini tapır. | Pəri Soltanla nişanlanır. |
| B) Əhməd ikinci tapşırığın öhdəsindən gəlir. | Pəri Soltanla kəbini kəsilir. |
| C) Qaravaş Əhmədi çox tərifləyir. | Pəri Soltan görməzdən Əhmədə aşiq olur. |
| D) Əhməd meydanda almaların sirrini açır. | Həmin hadisədən sonra onların toyu olur. |
| E) Vəzir Allahverdi xan Əhmədi tərifləyir. | Şah Abbas qızını Əhmədə verməyə razılaşır. |

**7. Nümunə ilə bağlı yanlış fikri müəyyən edin.**
Mən aşiqəm, düz yerdə
O göydədir, biz yerdə
O yer olmaz keçməsin,
Salmaz bircə iz yerdə.
A) Nümunə epik növə aiddir.
B) Şifahi xalq ədəbiyyatı nümunəsidir.
C) Qafiyələnməsi *aaba* şəklindədir.
D) “Mən aşiqəm” sözləri ilə başlaması bayatı olduğunu deməyə əsas verir.
E) Nümunədə fikir üstüörtülü şəkildə verilmişdir.

**8. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir.**
Xudafərin söykəndiyi sahillər qaya –
Dikələnə dirək olmaz,
Aşana çiyin.
Gözlülərin gözlərinin qabağındaca
Sualı yox, cavabı yox yiyəsizliyin...
(M.Araz)
A) inversiya, bədii təzad, metafor
B) təşbeh, bədii təzad, epitet
C) mübaliğə, inversiya, təşbeh
D) metafor, epitet, inversiya
E) bədii təzad, litota, metafor

**9. Sxemdəki boş xanaya uyğun gələn fikri müəyyən edin.**




A) Eyni ədəbi növə aiddir.
B) Həyatı əksetdirmə üsulu eynidir.
C) Təhkiyə əsasında yazılır.
D) Həm nəzm, həm də nəsrlə yazılır.
E) Remarkadan istifadə olunur.

**10. Cədvələ əsasən "Çahargah əfsanəsi" əsəri ilə bağlı uyğun fikirləri müəyyən edin.**

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1. Alim hökmdarın sarayında qalmaqdan imtina edir.<br>2. Hökmdar alimə özünün də bilmədiyi suallar hazırlayır.<br>3. Vəzir alimin firavan saray həyatını qiymətləndirməməsini nankorluq hesab edir. | 4. Alimi yalançı alimlikdə, xalqı aldatmaqda günahlandırırlar.<br>5. Vəzir alimin arxasınca bir bölük atlı yollayır.<br>6. Alim sualları hazırlamaq üçün qırx gün möhlət istəyir. |

A) 1, 2, 4  B) 2, 4, 6  C) 3, 4, 5  D) 2, 3, 6  E) 1, 5, 6

**11. Nümunə ilə bağlı doğru fikri müəyyn edin.**
Həmzə dedi:
– Deyirsiniz ki, Koroğlunun nə qədər igidliyi varsa, onun tən yarısı Qıratdadır. Bu yarısını mən gətirəcəyəm. Sizə qalacaq yarısı. O yarısından da bir pay düşəcək Bolu bəyə. Sənə qurban olum, bu payı üçün sən ona Toqat paşalığını verdin, ləl verdin, bir də böyük qızın Dünya xanımı verdin. Gəl bu yarısı üçün də kiçik qızını mənə ver.
A) Remarkadan bir parçadır.
B) Əhvalat təhkiyə yolu ilə verilib.
C) Lirik haşiyədən bir parçadır.
D) Peyzaj nümunəsidir.
E) Həyat hadisələrinin təqdimində tərənnüm əsas götürülüb.

**12. Fikirlərdən biri yanlışdır:**
A) Epiqraf əsər müəllifinin özünə də aid ola bilər.
B) Bədii əsərin mövzusu və ideyası onun məzmununa daxildir.
C) Razvyazkada ayrı-ayrı surətlər arasında olan münaqişə zəifləməyə başlayır.
D) Proloq əsərin sonunda verilir.
E) Zavyazka süjetin daha böyük hissəsini təşkil edir.

**13. Verilmiş nümunə ilə bağlı yanlış fikri müəyyən edin.**
"Barış canındakı zəhərli dərdlə,
İyrənmə özündən, ilan balası.
Bəlkə də, ən acı həqiqət elə
Sənsən yer üzündə, ilan balası.
Sənsən haqqın yolu bu yer üzündə,
Tanrı özü seçib bu yolu bəlkə.
Yüz cür sifətiylə, yüz cür üzüylə
Dünya səndən keçib durulur bəlkə".
(R.Rövşən)
A) I və III misralarda eyni bədii təsvir vasitəsindən istifadə edilib.
B) Sözlərin qrammatik ardıcıllığının pozulması emosionallığı qüvvətləndirmişdir.
C) Eyni sözün təkrarı fikrin təsir gücünü qüvvətləndirir.
D) Fikrin üstüörtülü ifadəsi emosionallığın artmasına səbəb olmuşdur.
E) Nümunədə bənzətmədən istifadə edilmişdir.

**14. “Gənclərə nəsihət” əsəri ilə bağlı cədvəldəki uyğunluğu müəyyən edin.**

| Məzmun xüsusiyyətləri ilə bağlı doğru fikirdir. | Forma xüsusiyyətləri ilə bağlı yanlış fikirdir. |
|---|---|
| 1. İnsanları gülərüz, mehriban olmağa səsləyir.<br>2. Əsərdəki əqrəb obrazı pis insanlarla müqayisə edilir. | 3. Əruz vəznində yazılmışdır.<br>4. Qafiyələnməsi məsnəvi formasındadır.<br>5. Ana dilində yazılmışdır. |

A) 2, 4 B) 1, 3 C) 1, 5 D) 1, 4 E) 2, 3

**5. Verilən nümunə kimin dilindən deyilir?**
İgidliklə qardaşının qanını aldın!
Qalın Oğuz bəylərini fəlakətdən qurtardın!
Qadir Allah üzünü ağ etsin, Basat! – dedi.
A) Qazan xan B) Dədə Qorqud C) Qaragünə
D) Aruz E) Bayandur xan

**16. Həyatı əksetdirmə üsulu baxımından məntiqi ardıcıllığı davam etdirin.**
1. “Qaragilə”
2. “Çahargah əfsanəsi”
3. “Gün çıx”
4. .......
A) Astiaq B) Uçdu-uçdu C) Qodu-qodu
D) Dəyirman E) İrəvanda xal qalmadı

**17. Nağıllar haqqında səhv fikri müəyyən edin.**
A) Epik təhkiyə ilə lirik təqdimat vəhdətdə olur.
B) Bütün nağıllarda xeyir şər üzərində qalıb gəlir.
C) Məişət nağıllarında həyatda baş verən real hadisələr təsvir edilir.
D) Mövzu, məzmun etibarilə, əsasən, üç yerə bölünür.
E) Bütün hadisələr əsas qəhrəmanla bağlı olur.

**18. Cədvələ əsasən “Salur Qazanın evinin yağmalandığı boy”da (“Kitabi-Dədə Qorqud” eposu) hadisələrin düzgün ardıcıllığındakı uyğunluğu müəyyən edin.**

| |
|---|
| Aruz Qoca Qazandan qərargahını kimə tapşıracağını soruşur. |
| 1 |
| Qazan xan qayğılı yuxu görür. |
| 2 |
| Çoban başına gələnləri Qazana danışır. |

a. Kafir Burla xatuna şərab paylatmaq istəyir.
b. Uruz üç yüz igidlə Qazanın evinin keşiyində durur.
c. Dəli Dondaz Qazan xanın təklifi ilə razılaşır.
d. Salur Qazan Qaraca çobanı böyük bir ağaca sarıyır.
e. Salur Qazan qurddan yurdunu xəbər alır.
A) 1-a, 2-e B) 1-b, 2-a C) 1-b, 2-c D) 1-b, 2-e E) 1-c, 2-e

**19. Nümunənin janrını müəyyən edin.**
Qara öküz aranda,
Çıxar gün qızaranda,
Hodaq murada çatar,
Torpaqdan bar alanda.
A) bayatı B) mahnı C) holavar D) sayaçı söz E) mövsüm nəğməsi

**20. Verilmiş nümunə ilə bağlı səhv fikri müəyyən edin.**
Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,
Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz!
Sənin ol cəlb eyləyən vəslinə and içdim inan,
Hicrinə yandı canım, yox daha taqət sənsiz!

A) İlk beytin qafiyələnməsinə görə nümunə qitə sayıla bilməz.
B) Nümunədə daxili qafiyədən istifadə edilmişdir.
C) Əruz vəznində yazılmışdır.
D) Nümunədə rədifdən istifadə edilmişdir.
E) Nümunədə bütöv söz prinsipinə əməl edilmişdir.

**21. Dram əsərindən verilmiş nümunə səhnədə oxunmaq üçün nəzərdə tutulmamışdır:**
A) Hamısını demişəm, ancaq sözlərini danmaqdan utanır.
B) Gülgəz başını tərpədərək gedir.
C) A kişi, vallah, mən yazığın heç bir şeydən xəbəri yoxdur.
D) Yaxşı ki, hələ atam bilmir.
E) Axı mən də bir insanam.

**22. Nümunə ilə bağlı yanlış fikri müəyyən edin.**
Payızın hökmüylə əsdi bir külək,
Bir yaşıl səltənət çovğuna düşdü.
Ağaclar bir yaş da qocaldı demək,
Bir yarpaq nəsli də qırğına düşdü.
(M.Yaqub)
A) Nümunədə rədifdən istifadə edilmişdir.
B) Bütöv söz prinsipinə əməl olunmuşdur.
C) Lirik növdə heca vəznində yazılmışdır.
D) Nümunədə metafor işlənmişdir.
E) Klassik şeir janrında yazılmışdır.

**23. Uruz surəti ("Kitabi-Dədə Qorqud" dastanı) uyğun fikirləri seçin.**

| "Salur Qazanın evinin yağmalandığı boyun"da Uruz haqqında doğru fikirlər: | "Qazan bəyin oğlu Uruzun dustaq olduğu boy"da Uruz haqqında yanlış fikirlər: |
|---|---|
| 1. Kafirlər Uruza atası ilə dərdləşmək üçün möhlət verirlər.<br>2. Uruz 300 igidlə birlikdə əsir düşür. | 3. Onu xilas etməyə gələn atasından geri qayıtmasını xahiş edir.<br>4. Qazan çətin vəziyyətə düşdüyünə görə döyüşə girir. |

**24. Ədəbi növlərlə bağlı düzgün fikirləri müəyyən edin.**
1. Qəzəldə son beytdə şair, adətən, adını və ya təxəllüsünü söyləmir.
2. Dram əsərləri həm nəzm, həm də nəsrlə yazılır.
3. Epiqraf yalnız nəsrlə yazılır.
4. Remarka həmişə nəsrlə yazılır.
5. Yanıltmaclar nəzmlə yazıldıqda lirik, nəsrlə yazıldıqda epik növə aid olur.

**25. "Dərzi şagirdi Əhməd" nağılı ilə bağlı doğru fikirləri müəyyən edin.**
1. Nağıl qəhrəmanı başqalarının köməyindən istifadə edir.
2. Şah Abbas surəti mənfi obrazdır.
3. Allahverdi xan namussuz yaşamaqdansa, ölməyi üstün tutur.
4. Qaravaş Əhmədi Yusif Peyğəmbərə bənzədirdi.
5. Qaravaşın məsləhətinə əsasən Pəri Sultan zindandan sarayın otaqlarından birinə qapı açdırır.

**26. Nümunə ilə bağlı doğru fikirləri müəyyən edin.**
Fələk salıb üzən gəmim çəngələ,
Məmmədhüseyn, ha yapış, ha cəng elə.
Qəsdi buymuş duman gələ, çən gələ,
Eşqin dəryasında ay, aza könül.
1. Nümundə cinas qafiyədən istifadə olunmuşdur.
2. Qafiyələnməsinə görə təcnisin ilk bəndi demək olar.
3. Nümunədə metafordan istifadə olunmuşdur.
4. Bütün misralarda inversiyadan istifadə olunub.
5. Bütün misraların bölgüsü 4+4+3 şəklindədir.

**27. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.**




a. Aid olduğu janrda ağlagəlməz, qeyri-adi hadisələrdən söz açılır.
b. Bir neçə aşağı təbəqənin nümayəndəsinin yuxarı təbəqəyə məsləhətləri olur.
c. Xan xalqa bir daha zülm etməmək qərarına gəldi.
d. Əsərin baş qəhrəmanı məsləhət üçün başqalarına müraciət edir.
e. Epik əsərdir.

**Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və 28–30 saylı tapşırıqları yerinə yetirin.**
"Görmədim"
Bivəfanın, müxənnəsin, nakəsin,
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin
Namusun, qeyrətin, arın görmədim.

Namərdi özümə mən dost eylədim,
Yolunda canıma çox qəsd eylədim.
Söyütdən bağ saldım, peyvəst eylədim
Almasın, heyvasın, barın görmədim.

Nəfs aldatdı, hər yetənə xan dedim,
Bihuda kollara gülüstan dedim,
Əbəs yerə bivəfaya can dedim,
Zəhmətin çox çəkdim, karın görmədim.

Huşum çaşdı, düşdüm olmaz oyuna,
Yetmədim gözəlin əsli soyuna,
Aşiq oldum simasına, boyuna,
Hayıf ki, kamalda dərin görmədim...
(Aşıq Ələsgər)

**28. Doğru hesab etdiyiniz fikri seçin və seçiminizi əsaslandırın.**
1. Şeirdə tərənnümdən istifadə edilmişdir.
Əsaslandırma:
2. Şeirdə tərənnümdən istifadə edilməmişdir.
Əsaslandırma:

**29. Çərçivədə verilmiş nümunəni "Görmədim" şeiri ilə müqayisə edin.**

| |
|---|
| Mən cahan mülkündə, mütləq, doğru halət görmədim,<br>Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim,<br>Aşinalar ixtilatında sədaqət görmədim,<br>Biətü iqrarü imanü dəyanət görmədim,<br>Bivəfadan lacərəm təhsili-hacət görmədim. |

| Məzmun baxımından oxşar cəhətlər: | Forma baxımından fərqli cəhətlər: |
|---|---|
| | |

**30. "Görmədim" şeirində lirik qəhrəman hansı mənəvi dəyərlərin itməsindən kədərlənir?**
.......